**“Aicell virtual bələdçini təbrik et, hədiyyə qazan!” müsabiqəsinin qaydaları**

**1. Ümumi müddəalar.**

1.1. Bu Qaydalar “**Aicell virtual bələdçini təbrik et, hədiyyə qazan**!” müsabiqəsinin (bundan sonra Müsabiqə) keçirilmə şərtlərini tənzimləyir.

1.2. Müsabiqə Azərbaycan Respublikasının ərazisində və “Azercell Telekom” MMC-nin (bundan sonra – Təşkilatçı) rəsmi Facebook və Instagram səhifələrində https://www.facebook.com/azercell, https://www.instagram/azercell - keçirilir.

**2. Təşkilatçı.**

2.1. Müsabiqənin təşkilatçısı “Azercell Telekom” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

2.2. Təşkilatçı haqqında məlumatlar: Ünvan: AZ1122, Bakı şəh, Tbilisi pr., 149. Tel.: (012) 496 70 07; E-poçt: office@azercell.com

**3. Müsabiqənin müddətləri.**

3.1. Müsabiqə 21/10/2024 – 29/10/2024 tarixlərini əhatə etməklə davam edəcək.

**4. Müsabiqənin iştirakçıları və onlara olan tələblər:**

4.1. Müsabiqədə Təşkilatçının rəsmi sosial şəbəkə səhifəsini izləyən Azərbaycan Respublikasının ərazisində daimi yaşayan fiziki şəxslər iştirak edə bilər.

4.2. Təşkilatçının işçiləri, onların ailə üzvləri, Müsabiqənin keçirilməsinə cəlb edilmiş idarə, müəssisə və təşkilatlar, onların işçiləri və həmin işçilərin ailə üzvləri Müsabiqədə iştirak edə bilməzlər.

4.3. Müsabiqə müddəti zamanı iştirakçı öz hesabının adını dəyişməməlidir.

4.4. Müsabiqə şərtlərini ödəyə bilməyən və ya tələbləri pozan iştirakçıların nəticələri etibarsız hesab olunacaq.

**5. Müsabiqənin keçirilməsi.**

5.1. Müsabiqədə iştirak etmək üçün İştirakçı:

5.1.2. Təşkilatçının müvafiq rəsmi səhifəsini (Instagram və ya Facebook) izləməli;

5.1.3. Müsabiqə elan edilən postu bəyənməli və şərh bölməsində Aicell-i kreativ şəkildə təbrik etməlidir.

5.2. Aşağıdakı iştirakçılar qalib sayılır və hədiyyələrlə mükafatlandırılır:

5.2.1. Aicell virtual bələdçini ən kreativ formada təbrik edən 5 izləyici (Facebook və İnstagram üzrə ayrı-ayrı olmaqla) qalib sayılır və hər biri ayrı ayrılıqda olmaqla 100 AZN-lik hədiyyə kartı qazanır;

5.3. Müsabiqənin keçirilmə müddəti 21.10.2024-29.10.2024-cü il tarixləridir.

5.4. Qaliblərin siyahısı 15 noyabr 2024-cü il saat 18:00-dək müsabiqə postunun şərh bölməsində paylaşılacaq.

**6. Mükafatlandırma**

6.1. Ən kreativ təbrik yazan 5 iştirakçı (Facebook və İnstagram üzrə ayrı-ayrı olmaqla) Azercell-dən 100 AZN-lik hədiyyə kartı ilə mükafatlandırılacaqlar.

6.2. 100 AZN-lik hədiyyə kartı qaliblərə bütün ölkə ərazisi üzrə poçt vasitəsilə ünvanlarına göndərilməklə təqdim edilir.

6.3. Mükafat hər hansı bir formada nağdlaşdırıla və başqa mükafat ilə əvəz edilə bilməz. Qaliblərə təqdim edilmiş hədiyyə kartları müəyyən balansa sahibdir və təkrar istifadəsi nəzərdə tutulmur.
6.4 Mükafat qismində hədiyyə kartlarının əldə edilməsi üçün qaliblər zəruri sənədlərlə 30.11.2024-cü il tarixinədək müraciət etməlidir. Bu tarixə qədər müraciət etməmiş qaliblər mükafatdan imtina etmiş hesab edilir və bu tarixdən sonra edilmiş müraciətlər nəzərə alınmır.

6.5. Qalib həm Təşkilatçının rəsmi sosial media səhifəsində açıqlana, həm də İştirakçının bilavasitə özünə şəxsi ismarış vasitəsi ilə xəbər verilməklə məlumatlandırıla bilər.
6.6. Qalib özü barədə məlumatları (ad, soyad, ata adı, telefon nömrəsi, elektron poçt ünvanı, şəxsiyyət vəsiqəsinin məlumatları) onlara əvvəlcədən bildiriləcək üsulla Təşkilatçıya təqdim etməlidir.
6.7. İştirakçı tərəfindən təqdim edilmiş məlumatlar yanlış olduqda, təqdim edilmiş məlumatlar əsasında İştirakçı ilə əlaqə saxlamaq mümkün olmadıqda, qalib haqqında məlumatlar ilə şəxsi hesab məlumatları arasında aradan qaldırılması mümkün olmayan uyğunsuzluqlar olduğu təqdirdə Təşkilatçı mükafatı verməkdən imtina etmək hüququna malikdir və buna görə məsuliyyət daşımır.
6.8. Qalib mükafatdan imtina etdikdə və ya Təşkilatçı mükafatı verməkdən imtina etmək hüququndan istifadə etdikdə, qalib seçimi yenidən keçirilir və ya siyahıda olan növbəti 6-cı iştirakçıya təqdim edilir.

**7. Digər şərtlər.**
7.1. Müsabiqənin qaydaları barədə məlumatlandırma Təşkilatçının rəsmi sosial media səhifələrində həyata keçirilir.
7.2. İştirakçı bu Müsabiqədə iştirak etməklə hazırkı qaydalar ilə tam tanışlığını və onlarla razılığını, o cümlədən aşağıdakılara razılığını bildirmiş olur:
7.2.2. İştirakçı barədə məlumatların Təşkilatçıya aid informasiya resurslarında və müxtəlif informasiya daşıyıcılarında Təşkilatçı tərəfindən sərbəst yerləşdirilməsi və yayılması.;
7.3. Təşkilatçı qalib gəlmək üçün ədalətsiz üsullardan istifadə edən İştirakçıları Müsabiqədən kənarlaşdırmaq hüququna malikdir.

7.4. İştirakçı tərəfindən bu Qaydaların hər hansı bir bəndinin pozulması Təşkilatçıya mükafat verməkdən imtina etmək hüququ verir.
7.5. Təşkilatçı rəsmi sosial media səhifələrində məlumat yerləşdirməklə Müsabiqənin keçirilmə qaydalarında dəyişiklik etmək hüququna malikdir.